

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 dekabr 2022-ci il №98 (2709) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Yaşıl enerji ilə bağlı saziş Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə bizim daha bir töhfəmiz olacaq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniyanın Prezidenti Klaus Yohannisin dəvəti ilə Buxarestə işgüzar səfərə gedib.*



Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı plenar iclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev plenar iclasda iştirak edib.

Rumıniya Prezidenti Klaus Yohannis Prezident İlham Əliyevi, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayeni, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini və Macarıstanın Baş naziri Viktor Orbanı qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Plenar iclası açan Rumıniya Prezidenti **Klaus Yohannis** qonaqları salamlayıb və çıxış edib. Dördtərəfli sazişin əhəmiyyətindən danışan Rumıniya Prezidenti bildirib ki, bu sənəd qeyd olunan ölkələr arasında bir sıra mühüm sahələrdə uzunmüddətli əməkdaşlıq üçün təməl yaradır. Həmçinin perspektivdə həle görülməli işlərin çox olduğunu qeyd edən Rumıniya Prezidenti deyib: "Növbəti mərhələdə sualtı elektrik enerjisi xətti boyunca rəqəmsal xətti çəkməyi hədəfə alarıq. Dəniz nəqliyyat əlaqələrinin bizim Konstantadakı limanımızdan Gürcüstan istiqamətində genişlənməsi nəzərdə tutulur. Bu səylər Azərbaycanla və sonra Mərkəzi Asiya ilə bağlılığı artıracaq. Potensialımızdan yararlanmaq və dayanıqlılığı artırmaq üçün qarşıda bizi çoxlu işlər gözləyir".

Avropa Komissiyasının Prezidenti **Ursula fon der Lyayen** isə qeyd edib ki, bu Saziş Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracaq və regionlarımıza təmiz enerjiyə keçidə nail olmağa kömək edəcək. Ursula fon der Lyayen sözügedən sənəddə bərpaolunan enerjiyə geniş diqqət ayrılmasından məmnunluğunu ifadə edərək deyib: "Bərpaolunan enerji mənbələrinin artmaqda olan payını inteqrasiya etmək üçün bizə güclü elektrik enerjisi interkonnektorları lazımdır. Məhz buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Mən, sadəcə, onu deyə bilərəm ki, bu, çox iddialı bir layihədir. Bu layihə bizi həm rəqəmsal kommunikasiya, həm də enerji üçün Qara dənizin hər iki tərəfindən, həmçinin Xəzər dənizi regionu ilə bağlayacaq. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə bizə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

Sonra dövlətimizin başçısı iclasda çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli həmkarlar.

Xanımlar və cənablar.

Əvvəlcə, məni bu cür mühüm tədbirə dəvət etdiyinə və ev sahibliyinə görə Prezident Yohannisə təşəkkürümü bildirmək istəyirəm. Bu gün imzalanacaq yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin icrası Avropanın enerji təhlükəsizliyinə verəcəyimiz ümumi töhfə olacaqdır. Bu Saziş yaşıl enerji dəhlizinin yaradılması istiqamətində atılan mühüm addımdır.

Mən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenə enerji təhlükəsizliyi və şaxələndirilməsi layihələrində Azərbaycana verdiyi davamlı dəstəyinə görə xüsusi minnətdarlığımı vurğulamaq istərdim.

Bu ilin iyulunda xanım Fon der Lyayenin Azərbaycana səfəri zamanı biz Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq və biz həmin sənədin icrasına artıq başlamışıq. Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün, 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi.

Dünən Dövlət Neft Şirkəti və Romqaz 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzaladılar. Beləliklə, Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var.

Bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz, 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq.

Beləliklə, yalnız təkcə bir qlobal enerji şirkəti Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır. İki gün əvvəl Azərbaycanın Energetika Nazirliyi digər qlobal enerji şirkəti ilə çərçivə sazişini imzalayıb. Həmin şirkət Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycan ixracının birinci mərhələsində ən azı 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaqdır.

Məqsədlərimizə nail olmaq üçün biz səmərəli surətdə çalışmalıyıq. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya Avropa İttifaqı ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində bir komanda kimi işləməlidirlər. Mən hamınıza uğurlar arzulayıram.

Sağ olun.

Rumıniya Prezidenti **Klaus Yohannis** deyib: "Çıxışınız üçün çox sağ olun, Prezident Əliyev. Eyni zamanda, yanaşmanız üçün də təşəkkür edirəm. Hesab edirəm ki, bu, düzgün yanaşmadır. Mən çox nikbinəm ki, bu dəfə iqtisadiyyatlarımızın yaşıl iqtisadiyyata keçid etməsini bizə söyləmək imkanını verən belə bir komandamız var".

Sonra çıxış edən Macarıstanın Baş naziri **Viktor Orban** hazırkı şəraitdə liderlərin ölkələrinin iqtisadi və enerji təhlükəsizliyini təmin etməli olduqlarını vurğulayıb. Hökumət başçısı bütün bunların həll yolunun bərpaolunan enerji mənbələrinin müəyyənləşdirilməsindən və onların Avropaya nəqlindən ibarət olduğunu vurğulayaraq deyib: "Avropa Komissiyasının müdrikliyinə görə biz Azərbaycana çox diqqət yetirdik, onunla əməkdaşlığımızı inkişaf etdirdik. Azərbaycanın və Prezident Əliyevin Avropa İttifaqı ilə əməkdaşlığa həmişə açıq olması təqdirəlayiqdir. Mən özüm də bir il ərzində Avropa İttifaqının həmişə Azərbaycana etibarlı tərəfdaş kimi etibar edə biləcəyinin şahidi olmuşam.

Bu gün enerji sahəsində Macarıstan adından bu sazişi imzalaya bildiyimiz üçün biz Azərbaycandakı, Gürcüstandakı və Rumıniyadakı dostlarımıza, həmçinin Avropa Komissiyasının Prezidentinə minnətdarıq".

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Yaşıl enerji ilə bağlı saziş Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə bizim daha bir töhfəmiz olacaq



(Əvvəli 1-ci səhifədə)

Gürcüstanın Baş naziri **İrakli Qaribaşvili** hazırkı geosiyasi çağırışlar fonunda enerji təhlükəsizliyi sahəsindəki aktual məsələlərin həlli baxımından şaxələndirmənin vacibliyinə diqqət çəkib. Baş nazir vurğulayıb ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişi imzalamaqla ölkələrimiz yaşıl enerji sahəsində sıx əməkdaşlığa etməyə hazır olduqlarını təsdiqləyib.

Rumıniyanın Baş naziri **Nikolae Çuke** dünyada baş verən hazırkı böhran şəraitində həmrəylik nümayiş etdirməyin və ehtiyatları bir araya gətirməyin vacibliyini qeyd edib. Baş nazir strateji tərəfdaşlıq haqqında Sazişi enerji sahəsində uzunmüddətli qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addım kimi dəyərləndirərək deyib: "Mən, 2023-cü ilin əvvəlindən başlayaraq Azərbaycan qazının Rumıniyaya çatdırılması ilə bağlı razılığa gəlinməsi istiqamətində irəliləyişi alqışlamaq istəyirəm. Bu, çox gözəl xəbərdir, çünki Rumıniyanın enerji təhlükəsizliyi baxımından əlavə bir müdafiəsi olacaqdır. Bir tərəfdən Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında, digər tərəfdən isə Avropa arasında yaşıl enerji ticarətinin inkişafını nəzərə alaraq, bərpaolunan enerjinin generasiyası üzrə mövcud potensialdan faydalanmaq bu gün heç vaxt olmadığı qədər mühüm əhəmiyyət kəsb edir".



Çıxışlardan sonra yekun iclas keçirilib.

* * *

Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb.

Sazişi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rumıniyanın Baş naziri Nikolae Çuke, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Macarıstanın Baş naziri Viktor Orban imzalayıblar.

İmzalanma mərasimində Rumıniya Prezidenti Klaus Yohannis və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen iştirak ediblər.

* * *

Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanma mərasimində iştirak edən nümayəndə heyətləri rəhbərlərinin şərəfinə Rumıniya Prezidenti Klaus Yohannes tərəfindən nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

* * *



Dekabrın 17-də Buxarestdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olub.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd edilib, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti vurğulanıb. Hər iki ölkənin müvafiq qurumları arasında sıx əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Söhbət zamanı "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasının əhəmiyyəti qeyd olunub, bu tədbirin Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyi bildirilib. Xüsusilə Avropanın enerji təminatının yaşıl enerji mənbələri hesabına həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb və bu işə Azərbaycanın mühüm töhfəsi qeyd olunub.

Görüşdə ikitərəfli münasibətlərlə bağlı da fikir mübadiləsi aparılıb. Yunanıstan-Bolqarıstan İnterkonnektoru işə salındıqdan sonra Azərbaycan qazının qısa müddət ərzində Rumıniyaya nəql edilməsi barədə razılığa gəlindiyi bildirilib və gələn ilin yanvarında bu işə başlanılacağı ifadə edilib. Həmçinin SOCAR-ın Rumıniyada uzun illər uğurla fəaliyyət göstərdiyi vurğulanıb, bu fəaliyyətin genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilib.

Söhbət əsnasında Azərbaycan-Gürcüstan-Rumıniya marşrutu ilə nəqliyyat-kommunikasiya imkanlarının, yükdaşımaların həcminin artırılmasının mümkünlüyü barədə də fikir mübadiləsi aparılıb. Bunun, eyni zamanda, Xəzər dənizi hövzəsi ilə Qara dəniz hövzəsi ölkələri arasında iqtisadi əməkdaşlıq işinə töhfə verəcəyi qeyd edilib. Bu proseslərin öz növbəsində Mərkəzi Asiya ilə Avropa arasında tranzit əlaqələrinin gücləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunulub, bu əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub. Həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqların uğurla davam etdirildiyi bildirilib.

Söhbət zamanı əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya işgüzar səfəri dekabrın 17-də başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir



Azad edilmiş ərazilərimizdə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində cari il ərzində 15620 hektaradək ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 29113 hektardan artıq ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Ümumilikdə 10185 ədəd piyada əleyhinə, 2580 ədəd tank əleyhinə mina və 10445 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Əsas səylərin azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldildiyi mina təmizlənmə işlərində Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamında olan qardaş Türkiyədən alınmış "MEMATT" (Mexaniki Mina Təmizləmə Təchizatı) texnikası da cəlb edilib.

Azad edilən ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsi nəticəsində azad edilən ərazilərimizdə mühəndis işləri davam etdirilir.



Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində cari il ərzində Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində mürəkkəb relyefli, o cümlədən çətin keçilən ərazilərdə bölmələrin fəaliyyətini təmin etmək məqsədilə ümumilikdə 334 km-dən çox yeni təminat yolu çəkilib.

Bundan başqa Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz, eyni zamanda, fasiləsiz hərəkətini təmin etmək məqsədilə 2022-ci ilin noyabr və dekabr ayları ərzində ümumilikdə 2564 km yol qar örtüyündən təmizlənib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Baş Qərargah rəisi bir sıra hərbi hissələrin döyüş hazırlığını yoxlayıb

*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bölmələrin döyüş hazırlığının qəfil yoxlanılması məqsədilə Komando briqadaları və digər hərbi hissələrdə olub.*



Baş Qərargah rəisi komandirlərin qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsi, bölmələrin döyüş hazırlığını, döyüş növbətçiliyinin təşkili və aparılmasını yoxlayıb.

Baş Qərargah rəisi döyüş hazırlığı səviyyəsinin yüksəldilməsində əsas diqqətin təlim və məşqlərin planlı və sistematik keçirilməsi, habelə birlik, birləşmə və idarəetmə orqanlarının döyüş uzlaşmasının təmin olunması, hərbi qulluqçuların fərdi hazırlığı, döyüş heyətlərinin tapşırıqları dəqiq və vaxtında icra etməsinə yönəldilməsini tapşırıb.

Təlim və məşqlərin intensivliyi və keyfiyyətinin artırılmasına toxunan müdafiə nazirinin birinci müavini onların Vətən müharibəsi, həmçinin son əməliyyatlar, xüsusilə də cari ilin sentyabr ayında baş vermiş döyüş toqquşmalarında qazanılan təcrübə nəzərə alınmaqla real döyüş vəziyyətinə uyğun şəraitdə keçirilməsi barədə göstəriş verib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində aparılan islahatlar haqqında danışan general-polkovnik Kərim Vəliyev postmüharibə dövründə görülən tədbirlər nəticəsində Azərbaycan Ordusunun əməliyyat və döyüş imkanlarının xeyli artdığını bildirib.

Müdafiə nazirinin göstərişlərini şəxsi heyətə çatdıran Baş Qərargah rəisi onların icrası ilə bağlı aidiyyəti vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**





# Torpaqlarımız etibarlı müdafiə olunur

Ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün qarantı olan rəşadətli Azərbaycan Ordusu bu gün dünyada sözünü deyən regionun ən güclü ordusudur. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində apardığı uğurlu islahatların və göstərdiyi qayğının nəticəsində dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılması ilə nəticələnib. Gündən-günə qüdrətini daha da artıran ordumuz həm güclü maddi bazaya, həm müasir silah və texnikaya, həm də peşəkar və savadlı hərbi kadrlara malikdir. Dövlətimizin qüdrətinin nümunəsi, xalqımızın iftixar yeri olan yüksək hazırlıqlı ordumuz istənilən şəraitdə və iqlimdə çətinlik bilmədən üzərinə düşən vəzifələrin öhdəsindən qətiyyətlə gələrək ərazi bütövlüyümüzü inamla qoruyur.

Azərbaycan Ordusunun - Silahlı Qüvvələrin əsas tərkib hissəsi olmaqla Azərbaycan Respublikasına qarşı yönəlmiş təcavüzün dəf edilməsini, ərazi bütövülüyünün və toxunulmazlığının silahlı müdafiəsini təmin edən və fəaliyyəti müvafiq icra hakimiyyəti tərəfindən təşkil edilən silahlı birləşmədir. İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilən ərazilərin böyük əksəriyyəti dağlıq ərazilərdir. Dağlıq ərazilərin çətin reylefi, dəyişkən iqlimi isə burada döyüş növbətçiliyinin təşkilini daha da çətinləşdirir, şəxsi heyətdən daha çox diqqət və məsuliyyət tələb edir. Dağlıq ərazilərin xüsusiyyətlərinin öyrənilməsi, burada xidmətin təşkili, təlimlərin, əməliyyatların planlaşdırılması və keçirilməsi zamanı diqqət yetirilməli olan ən vacib məsələlərdən biridir. Bu xüsusiyyətlər öyrənilmədən və nəzərə alınmasa, uğurdan danışmaq olmaz.



Bildiyimiz kimi, dağlıq ərazi şəraitləri həmişə qoşunlar tərəfindən döyüş tapşırıqlarının yerinə yetirilməsi üsullarına təsir edib və edəcək. Bu tapşırıqları yerinə yetirərkən ərazinin xarakteri, relyefi, qruntu, iqlimi, hidroqrafik və digər şərtləri mütləq nəzərə alınmalıdır. Dağlarda xidmətin təşkilinə ən çox bu relyef amillərinin təsiri olur.

Ehtiyatda olan polkovnik, hərbi ekspert Səməndər Məmmədov dağların xüsusiyyətlərinin qoşunlarımızın fəaliyyətlərinə ümumi təsiri mövzusunda yazdığı məqalədə qeyd edirdi ki, Qarabağın ərazisi müxtəlif yüksəklikdə dağlar olan sahələrdən ibarətdir. Ərazilər, dəniz səviyyəsindən yüksəkliyinə görə alçaq (500-1000 m), orta hündürlüklü (1000-2000 m) və hündür (2000 m-dən yuxarı) dağlar olan ərazilərdir, ona görə də burada xidmət təşkil edərkən onların fərqləri və özünəməxsus təsirləri nəzərə alınmalıdır. Məsələn, kiçik dağlar olan ərazilərdə təxribat törətmək istəyən düşmənin iri qruplaşmalarının fəaliyyətləri mümkündür. Nəzərə almaq lazımdır ki, bu ərazilərdə çoxlu əlverişli keçidlər və vadilər var, nisbətən inkişaf etmiş yol şəbəkəsi mövcuddur. Bütün bunlar imkan verir ki, qarşı tərəf yüksək tempdə və bütün növ döyüş texnikasını tətbiq etməklə təxribat törətsin.

Orta hündürlüklü dağlar olan ərazilər tərəfdən olan təxribatların qarşısının alınması daha da asanlaşır. Çünki burada düşmən qüvvələri artıq bəzi çətinliklərlə üzləşir. Bu dağlarda sərt, bəzi hallarda məskunlaşmış, bir çox yerlərdə isə dağıdılmış yaşayış məntəqələri olan yamaclar üstünlük təşkil edir, qışda aşırımlar hərəkət üçün çətin keçilən olur, qoşunların manevrləri məhduddur, ağır texnikanın yollardan kənarda tətbiqi çətinləşir.

Hündür dağlar olan ərazilərdə isə düşmən qruplarının gəlişi əsasən yol istiqamətləri boyu gözlənilir. Belə ərazilərdə hücum edən bölmə üçün ağır texnikanın tətbiqi məhdudlaşır, demək olar ki, mümkün olmur. Çünki aşırımlar ilin böyük hissəsi qarla örtülü və hərəkət üçün yararsız olur, teztez qar və daş uçqunları, sellər baş verir ki, bu da müdafiəni daha da gücləndirir. Bu ərazilərdə yollar azdır, hündürlüklərə qalxdıqca onların keyfiyyəti əsasən pisləşir. Mövcud yolların əksəriyyəti isə sərt döngəli, ensiz və dolayı serpantinli, sərt yoxuş və sərt enişlidir.

Hərbi ekspertin qeyd etdiyi xüsusiyyətlər və hava şəraitinin yaratdığı çətinliklər dağlıq ərazilərdə xidmətin olduqca çətin olduğunu gözlər önünə sərir. Lakin bu ağır şəraitlər yüksək dağ silsilələrində döyüş növbətçiliyini təşkil edən bölmələrimizdə xidmətin təşkilinə heç bir mane törətmir. Çünki orada xidmət edən bölmələrimizin qış təminatı əvvəlcədən təmin olunur. Həmçinin bölmələrimiz qarlı və buzlu yollarda hərəkəti təmin etmək üçün tırtıllı və xizəkli texnikalarla təchiz edilib. Eynilə Mühəndis Qoşunlarının dağlıq ərazilərdə uğurlu fəaliyyəti nəticəsində dar yollar daha da genişləndirilir, daha əlverişli yeni yollar çəkilir. Qış aylarında da fasiləsiz olaraq yolların qardan təmizlənməsi işləri aparılır. Bu da şəxsi heyətin, eləcə də maşınların və texnikaların maneəsiz və fasiləsiz hərəkətinə zəmin yaradır. Bir sözlə, dövlətimizin gücü nəticəsində zəngin maddi-texniki bazaya malik olan Azərbaycan Ordusunun şəxsi heyəti çətinliyi ilə seçilən dağlıq relyefli ərazilərdə də xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlir.

Kəlbəcərdə, Daşkəsəndə, Gədəbəydə, Laçında, Şuşada erməni silahlı birləşmələrinin dəfələrlə təxribatlara cəhd etməsi və uğursuzluğa düçar olaraq geri çəkilməsi bir daha əminlik yaradır ki, Azərbaycan əsgəri ərazinin reylefindən asılı olmayaraq xidməti vəzifələrinin öhdəsindən bacarıqla gəlir, daim ayıq-sayıq xidmət aparır. Rəhbərlik tərəfindən dağlıq ərazilərin xüsusiyyətləri nəzərə alınmaqla şəxsi heyətin döyüş və maddi-texniki təminatının həyata keçirilməsi ilə əlaqədar bütün işlər uğurla yerinə yetirilir. Çətin relyefə malik olan dağlıq ərazilərdə döyüş növbətçiliyinin daha keyfiyyətli təşkili, şəxsi heyətin təhlükəsizliyini maksimal təmin etmək məqsədilə xüsusi texniki vasitələrdən geniş istifadə edilməsi, eləcə də qış mövsümünə hazırlıq işləri daima xüsusi diqqətdə saxlanılır.

Bu gün əminliklə deyə bilirik ki, Azərbaycan Ordusunun dağ şəraitində və yüksəkliklərdə yerləşən hissə və bölmələrində nümunəvi xidmət şəraiti yaradılıb. Yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı, qələbə əzmində olan əsgərlərimiz də Vətən sərhədlərini və torpaqlarımızı etibarlı müdafiə edirlər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan və Türkiyə HHQ-nin nümayəndələri arasında qərargah danışıqları keçirilib





Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında 2022-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq hər iki ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndələri arasında 13-cü Qərargah danışıqları keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov hər iki qardaş ölkə arasında keçirilən qərargah danışıqlarının əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan və Türkiyə HHQ arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti qeyd edilib, eləcə də müxtəlif məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, plana uyğun olaraq qardaş ölkənin nümayəndə heyəti HHQ-nin hərbi hissələrini ziyarət edəcək.

## İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar ilə təlim-metodiki toplantı keçirilir





Cari ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində qoşun növü, birlik, birləşmə, hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş və mənəvi-psixoloji təminat (İİ və MPT) üzrə şöbə və bölmə (aidiyyəti kafedra və silsilə) rəisləri, hərbi hissələrin qərargah rəislərinin İİ və MPT üzrə köməkçiləri və psixoloqları ilə təlim-metodiki toplantı keçirilir.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim-metodiki toplantının başlaması münasibətilə çıxış edən Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov toplantı iştirakçılarına müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını çatdırdıqdan sonra 2022-ci il ərzində İİ və MPT sahəsində görülən işlər, bu istiqamətdə qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Qeyd edilib ki, cari ilin tədris dövründə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin çıxışlarından irəli gələn tapşırıqların bütün şəxsi heyətə çatdırılması təşkil olunub.

General-mayor E.Xəlilov Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan Vətən müharibəsindən, "Fərrux", "Qisas" və 2022-ci ilin sentyabr ayında Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına qarşı aparılan uğurlu döyüş əməliyyatlarından danışaraq bu qələbələrin qazanılmasında şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsinin, mənəvi-psixoloji hazırlığının və hərbi intizamının yüksək olmasının böyük rolu olduğunu vurğulayıb.

Qeyd edilib ki, Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun daha da yüksək döyüş hazırlığına gətirilməsi istiqamətində səmərəli və məqsədyönlü islahatlar aparılmaqdadır. Uğurlu islahatlar nəticəsində ordumuzun peşəkarlıq səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, bölmələrin müasir texnika və avadanlıqlarla təchiz edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər praktiki nəticələr verməkdədir. İşğaldan azad edilən ərazilərimizdə torpaqlarımızın keşiyində dayanan hərbi qulluqçularımızın xidməti və sosial-məişət şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.

Baş idarə rəisinin müavini qeyd edib ki, yerli icra hakimiyyəti orqanları və ictimai qurumların nümayəndələri, dövlət və qeyri-hökumət təşkilatları, veteranlar, ictimaiyyət və kütləvi informasiya vasitələri nümayəndələri və hərbi qulluqçuların iştirakı ilə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının təmin edilməsi və asudə vaxtının səmərəli təşkili məqsədilə dövlət bayramlarında, əlamətdar günlərdə 370-dən çox tədbir keçirilib. Şəhid hərbi qulluqçularımızın xatirəsinin yad edilməsi məqsədilə onların yaxınları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə 450-dən çox anım tədbiri təşkil olunub.

İdarə rəisi ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar Ulu Öndərin irsinin dərindən öyrənilməsi, planda nəzərdə tutulan tədbirlərin yüksək səviyyədə təşkili və qarşıda duran digər əsas tapşırıqları iştirakçıların diqqətinə çatdırıb.

General-mayor E.Xəlilov müdafiə nazirinin qərar və əmrlərinin tələblərinə, o cümlədən təhlükəsizlik qaydalarına və sayıqlığın artırılmasına dair təlimatlara uyğun olaraq hərbi qulluqçular arasında fərdi tərbiyə işinin aparılmasının və qarşılıqlı münasibətlərin düzgün təşkil edilməsinin vacibliyini vurğulayıb.

Sonra tədbirdə iştirak edən Milli Məclisin və digər dövlət qurumlarının nümayəndələri, eləcə də Müdafiə Nazirliyinin müxtəlif idarə və hərbi hissələrinin zabitləri çıxış edərək şəxsi heyətin mənəvi-psixoloji səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlər və ordunun döyüş qabiliyyətinə təsir edən digər mövzular ətrafında fikir və mülahizələrini bölüşüblər.

Sonda cari ilin dekabr ayının əvvəlində Azərbaycan Ordusunda keçirilən "İlin ən yaxşı psixoloqu" müsabiqəsində yer tutan hərbi qulluqçular müdafiə nazirinin müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müvafiq əmri ilə mükafatlandırılıblar.

## Azərbaycan Ordusunda təlim-metodiki toplanış keçirilir





Azərbaycan Ordusunda 2022-ci ilin döyüş hazırlığı planına əsasən, birlik, birləşmə, hərbi hissə komandirlərinin müavinləri və artilleriya rəisləri ilə təlim-metodiki toplanış keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səhra şəraitində təşkil edilmiş təlim nöqtələrində zabitlərin bilik və bacarıqları qiymətləndirilir, artilleriya bölmələrinin atışa hazırlanması və praktiki atış tapşırıqlarının yerinə yetirilməsi üzrə fəaliyyətlər icra olunur.

Toplanışda, həmçinin komandir heyəti ilə fərdi təcrübə mübadiləsinin həyata keçirilməsi, qarşılıqlı əlaqədə fəaliyyətlərin təşkili, yeni təlim üsullarının tətbiqi, eləcə də müxtəlif mövzularda metodiki məşğələlər keçirilir.

Vətən müharibəsində və müasir döyüş əməliyyatlarında qazanılan təcrübə nəzərə alınmaqla keçirilən toplanışın əsas məqsədi komandir heyətinin bölmələri idarəetmə vərdişlərinin, həmçinin əməliyyat və qərargah hazırlığı üzrə bacarıqlarının daha da təkmilləşdirilməsidir.

# Donvurmaların qarşısının alınması üçün təlimatlandırıcı söhbətlər aparılır

Bəzi xəstəliklər mövsümə uyğundur. Qış mövsümü ərzində şəxsi heyət arasında rast gəlinən belə xəstəliklərdən biri olan donvurma aşağı hərarətin toxumalara yerli təsiri nəticəsində baş verir. Ümumiyyətlə, donvurmaya sadəcə aşağı hərarət deyil, bəzən yüksək rütubət də, güclü külək də səbəb ola bilər. Adətən, buna bədənin açıq yerləri - burun, qulaq və ətraflar məruz qalır. Uzun müddət soyuq temperaturda olarkən orqanizm bədən temperaturunu tənzimləyə bilmir. Soyuq və şaxtalı havalarda dar və ya nəm ayaqqabı, ayaqların tərləməsi, əlcəksiz iş görülməsi, hərəkətsizlik, fəslə uyğun olmayan və ya nəmli paltar geyinilməsi donvurmaya əlverişli şərait yaradır.

Azərbaycan Ordusunda bu xəstəliklərin qarşısının alınması üçün mütəmadi olaraq profilaktik tədbirlər kompleksi həyata keçirilir. Belə ki, müxtəlif iqlim xüsusiyyətlərinə malik ərazilərdə hərbi xidmət keçən şəxsi heyət hava şəraitinə müvafiq geyimlərlə təmin edilir. Orta və yüksək dağlıq rayonlarda hava şəraitinin (temperaturun) tez-tez və kəskin dəyişməsi, hündürlük artdıqca havada oksigenin parsial təzyiqinin azalması, yüksək insolyasiya və ionizasiya, eləcə də fiziki və psixi yorğunluq həmin ərazidə xidmət edən şəxsi heyətə, o cümlədən döyüş mövqeyində olan hərbi qulluqçulara mənfi təsir göstərir və onlar arasında donvurma hallarının olmasına səbəb olur. Bölmələrdə donvurma xəstəliklərinin qarşısının alınması üçün şəxsi heyətin küləkdən, yağmurdan qorunması, o cümlədən meteoroloji vəziyyətə müvafiq geyindirilməsi, hərbi geyimin, ayaqqabıların düzgün seçilməsi, təyin olunmuş istismar müddətinə uyğunluğu, vaxtında yuyulması, qurudulması



rəhbərlik tərəfindən ciddi nəzarətdə saxlanılır.

Donvurma səthi və dərin ola bilər. Yanıqdan fərqli olaraq onun dərəcəsini ilkin baxış zamanı yox, yalnız 12-24 saatdan sonra təyin etmək mümkündür. Donvurma zamanı zədələnmiş nahiyədə hissiyyatın itməsi, quruması, keyləşməsi, dərinin həssaslığının kəskin azalması, donmuş sahənin bərk və ya yumşaq olması, şişkinlik, isinəndən sonra suluqların əmələ gəlməsi, dəri rənginin dəyişməsi, barmaqlarda gizildəmə, qızdırılma zamanı don vuran yerin ağrı verməsi, yanğı hissi və s. əlamətlər yaranır.

Donvurma əsasən soyuq qış günlərində, temperatur 10 dərəcədən aşağı olduqda baş verir. Lakin uzun müddət, xüsusən də yüksək nəmlik və güclü külək zamanı yataqxanadan kənarda qaldıqda, hətta bəzən havanın temperaturu 0 dərəcədən yuxarı olduqda, yaz və payız aylarında da rast gələ bilər. Meteoroloji amillərdən başqa, donmaya dar, nəm paltar və ayaqqabı, fiziki yorğunluq və uzun müddət məcburi hərəkətsiz, rahat olmayan vəziyyət, aclıq, keçirilmiş xəstəlik nəticəsində orqanizmin zəifləməsi, ayaqların tərləməsi, aşağı ətrafların və ürək-damar sisteminin xroniki xəstəlikləri, qanitirmə, zədə, siqaretçəkmə, alkoqol sərxoşluğu və s. də səbəb olur.

Donvurma zamanı soyuğun bütün orqanizmə təsiri termorequlyasiyasının pozulmasını və bütün orqanizmin soyumasını (hipotermiya) yaradır. Hipotermiya - ətraf mühitin aşağı temperaturunun təsirindən bədənin itirdiyi istiliyi bərpa edə bilməməsi və ümumi soyumasıdır. Ümumi soyumada zərərçəkmiş süstdür, etinasızdır, dəri örtüyü solğundur, soyuqdur. Nəbz seyrəlir, bədən temperaturu 35 dərəcə selsidən aşağı enir. Bu zaman ürək ritmləri pozulur və nəticədə ürək dayanır. Donvurma zamanı zədələnmiş nahiyələrdə dəri soyuq olur, rəngi göyərir, hissiyyatı itir. Ona görə də zərərçəkmişdə həm donvurma, həm də hipotermiya əlamətləri müşahidə edilirsə, birinci növbədə hipotermiyadakı kimi yardım göstərmək lazımdır, çünki insan bədəni qısa müddətdə qızdırılmazsa, bu vəziyyət ölümlə nəticələnə bilər. Amma bu vəziyyətdə donvurmanı da yaddan çıxarmaq olmaz, çünki ağır dərəcədə donvurma ətrafların amputasiyasına səbəb ola bilər.

Donvurma zamanı ilkin tibbi yardımın əsas məqsədi zədələnmiş nahiyəni isitmək və təkrar soyumadan qorumaqdır. Bunun üçün zərərçəkmişi isti otağa gətirmək, ayaqqabıları və əlcəkləri çıxarmaq lazımdır. Donmuş orqan ılıq su tökülmüş ləyənə yerləşdirilməli, 30 dəqiqə müddətində suyun temperaturu 17-18 dərəcədən 40,5 dərəcə selsiyə çatdırılmalıdır. Ətrafda hissiyyat və qan dövranı bərpa olunduqdan sonra qurulamaq, 33 faizli spirtlə silmək və pambıq-tənzif bintlə sarımaq lazımdır (təmiz, ütülənmiş corab geyindirmək olar). Ümumi soyuma olduqda isə zərərçəkmişi isti adyalla örtmək, yanına isitqac düzmək, isti çay vermək lazımdır. Dərin donma əlamətləri varsa, yalnız isidici sarğı qoyulmalıdır. Əgər bunları etmək imkanı yoxdursa, donmuş ətraflar bədənin isti yerlərinə və s. yaxın saxlanılır. Üz kimi açıq nahiyələrə təzyiq göstərmədən əl və ya əlcək qoyub isidilir. Əlləri qoltuq altında və ya sinədə qızdırmaq olar. Bundan başqa zədələnmiş nahiyəyə tarım çəkilmiş steril quru sarğı qoyulur, əl və ayaq barmaqlar donmuşsa, onların arasına pambıq və ya tənzif qoyulur. Ayaqların donu açılandan sonra zərərçəkənin gəzməsinə icazə verilmir. Huşu aydın olan zərərçəkənə isti çay və yemək verilir. Suluqlar deşilmir, zədələnmiş nahiyəni əllə ovuşdurmaq, qarla sürtmək və ona təzyiq göstərmək olmaz. Zədələnmiş nahiyənin qarla sürtülməsi dərinin daha da soyumasına, dəridə cızıqların əmələ gəlməsinə, onların infeksiyalaşmasına və dəridə yerləşən toxumaların zədələnməsinə səbəb olur. Bədənin donmuş hissələrini birdən-birə və birbaşa açıq alov, isti butulka və isti kərpiclə qızdırmaq olmaz.

Bu gün Azərbaycan Ordusunun bütün tibbi bölmələri isidici avadanlıqlarla, yanacaq, yataq kisələri, xüsusi geyim, ilk yardım və təxliyə vasitələri ilə, o cümlədən isitqac və əlavə adyallarla tam təmin olunub. Yüksək dağlıq ərazilərdə xidmət keçən əsgərlər xüsusi olaraq seçilir, fiziki və psixoloji hazırlığı yoxlanılır. Həmçinin şəxsi gigiyena qaydalarına əməl etmələri üçün hər cür şərait yaradılır. Xidməti yerlərinə göndərilməzdən əvvəl hərbi qulluqçular tibb məntəqəsində tibbi müayinədən keçirilir, ehtiyac olduqda hospitallarda dərin tibbi müayinə aparılır. Hərbi qulluqçuların faktiki enerji itkilərinin qidalanmaları ilə mütənasib olmasına, qida rasionuna, həmçinin su təchizatına daim tibbi nəzarət edilir. Hərbi hissələrdə donvurmaların qarşısının alınması üçün metodik köməklik göstərilməsi məqsədilə Müdafiə Nazirliyinin Tibb İdarəsi tərəfindən telefonoqramlar və məktublar göndərilir, hərbi həkimlər şəxsi heyətlə təlimatlandırıcı söhbətlər aparırlar.

Bütün bunlarla yanaşı, donvurmaya məruz qalmamaq üçün hər bir hərbi qulluqçu fərdi olaraq kəskin soyuqlar zamanı düzgün qidalanmalı, quru və isti geyinməlidir. Soyuq havalarda yun və xəz paltardan istifadə etdikdə bədən və paltar arasında isti hava qatı yaranır. Sıx toxunmuş lifləri olan çoxqatlı paltar orqanizmin ətrafındakı isti havanı qoruyub saxlayır. Qışda papaq geyinmək istiliyin başdan xaric olmasının qarşısını alır.

Belə havalarda döyüş növbətçiliyinə çıxmazdan əvvəl çoxlu maye içmək lazımdır. Uzun müddət soyuqda qalanda əllərin şişərək göyərməməsi üçün onu ovuşdurmaq və mütləq əlcək geyinmək, ağrılar olduqda fəal şəkildə tərpətmək lazımdır.

**Şamil HACIYEV**
**Termiki zədələnmələr və rekonstruktiv cərrahiyyə bölməsinin həkim ordinatoru**

*Tibb xidməti*

# "Bölməmizdə xəstələnmə halları çox az olur"

Ezamiyyətdə olarkən tibb xidməti zabitlərinin dediklərindən belə qərara gəlmək olar ki, hərbi hissələrdə yaradılan müasir məişət şəraiti, həmçinin şəxsi heyətin düzgün qidalanması və əşya-ərzaq təminatının yaxşılaşdırılması əsgərlər arasında xəstələnmə faktının ötən dövrlərlə müqayisədə dəfələrlə azalması ilə nəticələnib.

Dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğunun daha da inkişaf etdirilməsinə göstərilən diqqət və qayğı bütün sahələrə olduğu kimi, şəxsi heyətin sağlamlığının da diqqət mərkəzində saxlanılmasına yönəlib. Azərbaycan Ordusunun tabeliyində olan bütün hərbi hissələrdə müasir standartlara cavab verən tibb məntəqələri inşa edilib ki, bu da şəxsi heyətin sağlamlığının daim nəzarətdə saxlanıldığının göstəricisidir.

Hərbi hissənin tibb məntəqə rəisi gizir Famil Həsənov İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Əslən Laçından olan gizir döyüşlər zamanı vəzifə borclarının öhdəsindən uğurla gəldiyinə, göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub. Famil əsgərlərimizin səhhətinin keşiyində durmaqdan, Azərbaycan Ordusunda xidmət etməkdən qürur duyduğunu bildirdi. Vəzifə borclarının öhdəsindən bacarıqla gəlməyi, əsgərlərin sağlamlığını qorumağı, narahatçılığı olanlara tibbi yardım göstərməyi özünə mənəvi borc bildiyini vurğuladı: "Hər dəfə əsgərlərə tibbi xidmət göstərəndə vəzifələrimin müqəddəsliyini və məsuliyyətini daha yaxşı hiss edirəm. Torpaqlarımızı göz bəbəyi kimi qoruyan oğulların dərdinə məlhəm tapanda, sarğısını dəyişəndə, ən başlıcası isə xəstələnmə riskinin qarşısını vaxtında alanda özümü xoşbəxt hiss edirəm", - Famil dedi.



Müasir dövrdə ölkəmizdə hərbi səhiyyənin inkişafından fəxr hissi ilə söhbət açan müsahibim qeyd etdi ki, əvvəlki illərlə müqayisə edildəndə bu gün tibbi təminatımız ən yüksək səviyyəyə çatdırılıb. "Dövlətin ordumuza olan güclü dəstəyi bütün sahələrdə olduğu kimi, tibb xidmətinin də müasir səviyyədə inkişafına səbəb olub. Alınan yeni tibbi avadanlıqlar müayinənin dəqiq aparılmasına kömək edir. Artıq bir çox hallarda özümüz xəstəni düzgün müayinə edirik, əgər zərurət yaranarsa, xəstə hospitala təxliyə edilir və orada ona lazımi tibbi xidmət göstərilir. Ən başlıcası isə, hazırda xəstələnmə faktına çox az rast gəlinir, çünki bölmələrin hamısında əlverişli sosial-məişət şəraiti yaradılıb".

Sonra Famillə tibb məntəqəsinin xidməti otaqları və palataları ilə tanış olduq. Məntəqənin səliqə-sahmanı, təmizliyi, çalışanların nizamlı geyim forması göz oxşayırdı. Aptek rəisi feldşer gizir Buğday Abdullayev tibb məntəqəsində fəaliyyət göstərən aptekdə bütün lazımi dərmanların olduğunu bildirdi: "Məntəqəmiz müasir tibbi avadanlıqlara yanaşı, dərman preparatları ilə də yüksək səviyyədə təmin olunur. Həkim və feldşerlər qaydalar çərçivəsində müraciət edərək xəstənin müalicəsində ehtiyac olan dərmanları əldə edirlər. Dərman preparatlarının saxlanma qaydalarına xüsusi diqqət yetirilir, saxlama müddəti bitənləri yeniləri ilə əvəzləyirik. Bir sözlə, səhhətində problem olan hərbi qulluqçularımızın şəfa tapması üçün burada hər cür şəraitimiz və təminatımız var", - Buğday dedi.

Xəstələrin qəbulu otağında müayinə olunan əsgər Emil Vaidovun burada göstərilən diqqət və qayğıdan, xoş münasibətdən razılıq etdi. "Tibb məntəqəsindən müalicə alan hər kəs razılıq edir. Silahdaşlarımız həkimlərin səmimiyyətindən, onlara doğma münasibət bəslədiyindən, qayğıkeş yanaşmalarından ağızdolusu danışırlar. Həmçinin məntəqənin işçiləri tez-tez bölməmizə gələrək bizi xəstəliklərdən qorunmaq üçün təlimatlandırır, maarifləndirici söhbətlər aparır, dezinfeksiya işləri görürlər. Onların zəhmətinin nəticəsidir ki, xəstəliklərin, virusların çox yayıldığı vaxtlarda bölməmizdə xəstələnmə halları çox az olur", - əsgər E.Vaidov bildirdi.

Hərbi hissənin tibb məntəqəsi ilə tanışlığımdan əmin oldum ki, burada müraciət edən hərbi qulluqçulara vaxtında və dəqiq tibbi xidmət göstərilir. Məntəqədə çalışanların hər biri bütün bilik və imkanlarını səfərbər edir ki, əsgərlərimiz xəstələnməsinlər, narahatlığı olanlar isə tez sağalıb xidməti yerlərinə qayıtsınlar.

**Baş leytenant Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Təlim*

# Azərbaycan Ordusunda sürücülərin peşəkarlıq səviyyəsi artırılır





*Azərbaycan Ordusunda sürücü ixtisası üzrə xidmət edən hərbi qulluqçuların peşəkarlığının artırılması məqsədilə hərbi hissələrdə və təlim mərkəzlərində nəzəri-praktiki məşğələlər keçirilir. İstənilən ixtisasda yüksək bilik və peşəkarlıq uğur qazandıran vacib şərtdir. Ona görə də hərbi hissə və birləşmələrdə bu amil daim komandirlərin diqqət mərkəzindədir. Hərbçilər ixtisas biliklərini, peşəkarlıqlarını artırmaq üçün müntəzəm olaraq keçirilən dərs və məşğələlərdə, təlimlərdə fəal iştirak edir, təcrübə və bacarıqlarını daha da zənginləşdirirlər.*

Başqa sahələrlə bərabər sürücü ixtisasının təkmilləşdirilməsi üçün də daim kurslar təşkil edilir, təlimlər keçirilir. "N" hərbi hissəsində sürücülərin ixtisasartırma kurslarının təşkili ilə maraqlandıq.

Polkovnik-leytenant Aqil İsmayılov bu istiqamətdə aparılan zəruri işlərdən, həyata keçirilən müxtəlif tədbirlərdən qısa söz açdı:

- Sürücülərin bacarıqlı olması, ixtisasını yüksək səviyyədə bilməsi, avtomobili peşəkar idarə etməsi xidmətdə qazanılacaq uğurlara təkan verən başlıca amildir. Hərbi hissənin təyinatına uyğun olaraq sürücülər müvafiq tapşırıqlar yerinə yetirirlər. Yüklərin ünvanına vaxtında və təhlükəsiz çatdırılması sürücüdən yüksək bacarıq və peşəkarlıq tələb edir. Buna görə də müntəzəm olaraq hərbi hissədə və təlim mərkəzlərində sürücülük kursları keçirilir. Kursların təşkili üçün hərbi hissədə hərtərəfli şərait yaradılıb. Tədris otaqları və təlim mərkəzindəki xüsusi meydança sürücülərin ixtiyarına verilib. Əvvəlcə nəzəri dərslər keçirilir, mövzular ətraflı izah olunur. Nəzəri dərslər başa çatandan sonra praktiki məşğələlər başlayır.

Keçirilən kursların böyük əhəmiyyəti barədə eşitdiyimiz sözlərdən məmnun qaldıq. Kapitan Anar Rəhimli ilə nəzəri məşğələləri izləmək üçün tədris otağına yollandıq. Zabit söhbət zamanı dedi ki, sürücülər müntəzəm olaraq keçirilən kurslarda fəal iştirak edirlər. "Daim bilik və vərdişlərini təkmilləşdirirlər. Hərbi hissənin şəxsi heyəti İkinci Qarabağ müharibəsində üzərinə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlib. Sürücülərimiz döyüşlərin davam etdiyi günlərdə düşmən üzərində qələbənin qazanılmasını təmin edən zəruri yükləri vaxtında təyin edilmiş məntəqəyə çatdırıblar. Onlar nə qədər təcrübəli olsalar da, yenə də həvəslə kurslara qatılır və peşəkarlıqlarını daha da artırırlar. Yaxşı bilirlər ki, daim artan bu peşəkarlıq hər addımda onlara uğur gətirəcək".

Söhbət edə-edə tədris otaqlarına çatdıq. Siniflərin birində məşğələ keçən sürücülərlə tanış olduq. Avtomobil bölməsinin komandiri baş leytenant Qara Abdullazadə dərs keçirdi.

Diqqətimizi daha çox otaqdakı tədris vəsaitləri çəkdi. Sinif otağında tədris olunan mövzulara uyğun vəsaitlərin zəngin olması komandanlığın sürücülük kurslarının keçirilməsinə göstərdiyi diqqət və qayğıdan xəbər verirdi. Təbiidir ki, tədris vəsaitləri nə qədər zəngin olsa, dərs bir o qədər səmərəli olar.

Məşğələdə fasilə yaranandа sürücülərə dərs keçən zabitlə həmsöhbət olduq. Əvvəlcə onu öyrəndik ki, bölük komandiri də İkinci Qarabağ müharibəsində iştirak edib. Murovdağ istiqamətindən başlanan döyüş yolu Zəngilandan, Qubadlıdan keçərək türk dünyasının mədəniyyət beşiyi olan Şuşada tamamlanıb. Döyüşlərdə göstərdiyi igidliyə və cəsarətə görə müxtəlif medallara da layiq görülüb. Qısa tanışlıqdan sonra gənc zabit dedi ki, bir qayda olaraq sürücülük kursları yüksək səviyyədə təşkil olunur. "Tədris olunan mövzuları şəxsi heyətə izah etmək üçün həm nəzəri, həm də praktik cəhətdən geniş imkanlarımız var. Biz bu imkanlardan səmərəli istifadə edirik.



Bunlardan əlavə kurslarda iştirak edən hərbi sürücülərə, həmçinin sərt iqlim şəraitində, müxtəlif relyefli ərazilərdə avtomobili idarə etməyin qaydalarını da öyrədirik. Bunları bilmək sürücülərimiz üçün çox



vacibdir. Çünki onlar tez-tez erməni işğalçılarından azad olunmuş Laçın, Kəlbəcər, Qubadlı və başqa bölgələrə zəruri yüklər daşıyırlar. Yəni, qarlı, yağışlı havada, donmuş yollarda avtomobili necə idarə etməyin qaydalarını onlara hərtərəfli öyrədirik. Sərt iqlim şəraitində avtomobili idarə etmək sürücüdən böyük bacarıq və peşəkarlıq tələb edir. Kursu uğurla başa vuran hərbi sürücülərimiz istənilən hava şəraitində avtomobilləri rahat idarə edə bilmək üçün bütün zəruri vərdişlərə yiyələnirlər. Nəticədə bölgələrə apardıqları yükləri təhlükəsiz şəraitdə və vaxtında ünvana çatdırırlar. Kursda iştirak edənlər ixtisaslarını daha da dərindən öyrənməyə çalışırlar. Sürücülərin bu cür çalışqanlığı müsbət nəticələr verir. Kursun sonunda keçirilən sınaq məşğələlərində ürəkaçan nəticə göstərirlər. Artıq nəzəri məşğələmiz başa çatmaq üzrədir. Bir azdan praktiki məşğələlər başlayacaq. Kurs iştirakçıları tədris otaqlarında öyrəndiklərini praktiki olaraq göstərəcəklər".

Sürücülərlə də görüşüb söhbət etdik, dərs və məşğələlər barədə onların da fikirlərini öyrəndik. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əli Məmiyev dedi ki, keçirilən kurslar əhəmiyyətli və vacibdir. "Çünki biz dərs və məşğələlərdə yeni biliklər öyrənir, vərdişlərimizi daha da təkmilləşdiririk. Təkmilləşən bu bilik və vərdişlər təcrübəmizi daha da artırır. Gördüyünüz kimi, dərs otaqları zəruri tədris vəsaitləri ilə təmin olunub. Bu da nəzəri məşğələlərin mövzusunu geniş şəkildə biz sürücülərə çatdırılmasını təmin edir. İştirakçı kimi deyə bilərəm ki, kursların yüksək səviyyədə təşkili bizi daha da həvəsləndirir. Cavabdeh zabitlər məşğələnin mövzularını sürücülərə hərtərəfli izah edirlər. Kurs başa çatandan sonra sükan arxasından oturub avtomobili idarə etdikdə hiss edirik ki, təcrübə və peşəkarlığımız artıb. Deməli, kursların keçirilməsi olduqca zəruridir".

Sürücülər çavuş Məzahir Hüseynov, kiçik çavuş Bəhruz Məmmədov, əsgərlər Bəylərağa Əhmədağayev, Fuad Tağızadə və başqaları kurslarda qazandıqları bilik və vərdişlərdən ətraflı danışdılar.

Nəzəri dərslər başa çatandan sonra praktiki məşğələni izlədik. Onlar hərbi hissənin geniş ərazisində avtomobilləri idarə edə-edə müxtəlif maneələrdən keçir, tapşırıqları yerinə yetirirdilər. Baş leytenant Qara Abdullazadə onlara mövzuya uyğun olan müvafiq əmr və tapşırıqlar verirdi.

Hərbi hissədə kurslar zamanı keçirilən dərs və məşğələlərdə əsas məqsəd sürücülərin peşəkarlıq və təcrübələrinin daha da artırılmasıdır. Bir daha şahidi olduq ki, onların bilik və təcrübələrinin yüksəldilməsi üçün hərbi hissədə müasir tələblərə cavab verən hərtərəfli şərait yaradılıb. Deməli, sabahlarımızın sürücüləri daha da hazırlıqlı, bacarıqlı və peşəkar olacaqlar. Xidmətlərini uğurla yerinə yetirərək müvəffəqiyyət qazanacaqlar.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# “Ağ ölüm”ün qara fəsadları




Narkomaniya insanları sağalmaz xəstəliklər məngənəsində boğan "ağ ölüm"dür. İllərdir ki, bu bəla müasir cəmiyyətin ən çox rastlaşdığı və müzakirə etdiyi problemlərdən biridir. Təəssüflə qeyd etməliyik ki, narkomaniyanın əsas qurbanları olan gənclərin sayı bütün dünyada durmadan artır. Gəncliksə hər bir dövlətin, millətin, xalqın sabahı, gələcəyidir. Dövlətin, millətin, xalqın gələcəyi sağlam, etibarlı gənclikdən asılıdır. Buna görə də gənc nəslin sağlam ruhda tərbiyəsi cəmiyyətin əsas vəzifəsi hesab olunur.

Narkomaniya insan həyatında, bəşəriyyət üçün dövründə böyük fəsadlar verən taun xəstəliyi kimi bəlaya çevrilən, irqindən, yaşından, dinindən asılı olmayaraq, bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biridir. Dünyada yaşayan bütün xalqların, millətlərin təhlükə mənbəyinə çevrilən narkomaniya qorxulu xəstəlik kimi hər bir insanı düşündürür. Beynəlxalq problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi, xüsusilə yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsi prioritet məsələdir. Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq, bir çox ölkələrdə "Narkotiksiz gələcək naminə" milli proqramların qəbulu da, təbii ki, məsuliyyət hissindən yaranan vətəndaşlıq borcudur. Bu gün biz hamılıqla dünyanı ağuşuna alan narkomaniyaya "Yox!" deyib, bu ölüm kabusuna qarşı birgə mübarizə aparmalıyıq.

Günümüzdə narkotik maddə alverçiləri gəncləri öz girovlarına çevirməyə cəhd göstərirlər. Beləliklə, gəncliyin məhvi və ölümü üzərində özlərinə kapital toplamaq əsas məqsədə çevrilir. Bu zaman nəinki bir ölkənin, eyni zamanda, dünyanın gələcəyi təhlükə qarşısında qalır. Ölümün sindromu olan narkomaniya ilə mübarizə aparmaq o qədər də asan məsələ deyil. Narkotik maddə alverçilərini "ölüm kabusları" da adlandırmaq olar.

Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilib. XX əsrin sonunda isə narkomaniya ümumbəşəri bəlaya çevrilərək, müxtəlif xalqların genefonduna sarsıdıcı zərbələr vuran, qarşısıalınmaz bir təhlükəyə çevrilib. Narkomaniyanın daha çox yayıldığı dövrü araşdırarkən məlum olur ki, hələ keçən əsrin 60-cı illərində gənc sənət adamları arasında narkotik maddələrin qəbulu özünəməxsus həyat tərzinə çevrilmişdi. Hətta onlar bunu gizlin saxlamır, əksinə, bəzən sənət uğurlarını narkotik maddələrin qəbulu ilə əlaqələndirirdilər. Bu sənətçilərin pərəstişkarları da özlərini onlara oxşatmağa çalışaraq narkotik maddə qəbul edirdilər. Həmin dövrdən xeyli vaxt keçməsinə baxmayaraq, hələ də narkomaniya ilə məşğul olanlar bu aludəçiliyin insanı ağır problemlərdən xilas etməsi kimi zərərli fikirlərini yaymaqda davam edirlər. Bəşəriyyət isə sanki "ağ ölüm"lə mübarizədə acizliyini göstərməkdədir.

Narkotik maddələrin gənc nəsil arasında yayılmasının qarşısını almaq məqsədilə dünyanın bir çox ölkələrinin qəbul etdiyi milli proqramlarda nəzərdə tutulan müddəalar fasiləsiz yerinə yetirilir. Bu proqramların əsasən, təhsil ocaqlarının, ictimai təşkilatların əsas vəzifələrindən biri narkomaniyaya qarşı maarifləndirmə və təbliğat işinin aparılmasıdır. Bu mübarizə işi kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsilə həyata keçirilir.

Yaşadığımız dövrün ən aktual, ağrılı problemi olan narkomaniya və onun fəsadlarına qarşı mübarizə ilə bağlı əhali, xüsusən də gənc nəsil arasında maarifləndirmə və təbliğat işlərinin aparılması ölkəmizdə də ümumxalq əhatəsina çevrilib. Narkomanlıq insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan, həmçinin cinayətkarlığın artmasına səbəb olan əsas amillərdən biridir. Məhz buna görə Ümummilli Lider Heydər Əliyev bu növ cinayəti cəmiyyətin "sosial bəlası" adlandırmışdır. Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli Fərmanı ilə 2000-2006-cı illərdək narkomanlığın yayılmasına, narkotik vasitələrin, psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə Milli Proqram qəbul edilib və bu proqramın tələblərindən irəli gələn məsələlərin həlli, həmçinin aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə xüsusi Dövlət Komissiyası yaradılmışdı. Azərbaycan 2000-ci ildə Avropa Şurasının tamhüquqlu üzvləri sırasında öz layiqli yerini tutduqdan sonra Avropa və dünya birliyinə inteqrasiya zəminində bu sahədəki fəaliyyətini daima uğurla davam etdirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci və 2007-ci illərdə verdiyi fərman və sərəncamlar "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan məsələlərin həlli istiqamətində atılan uğurlu addımlar idi. Ölkə rəhbəri Dövlət Proqramının davamı olaraq 2013-2018-ci illər üçün növbəti sərəncam imzalayıb. Bu dövlət başçısının dəhşətli bəlaya qarşı mübarizə sahəsində həyata keçirdiyi məqsədyönlü siyasətin bir hissəsi kimi dəyərləndirilməlidir.

Hər şeydən öncə, narkotiklə və narkobizneslə mübarizə cəmiyyətin sağlamlığının qorunması zərurətindən irəli gəlir. 20 ildən artıqdır ki, Azərbaycan narkomaniyanın dünyada yayılmasının qarşısının alınmasına dair BMT-nin üç konvensiyası ətrafında digər ölkələrlə sıx əməkdaşlıq şəraitində mübarizədə öz köməyini əsirgəmir.

Bu gün bəşəriyyətin ən qorxulu xəstəliklərinin mənbəyi də elə narkomaniyadır. Ona görədir ki, bu bəlaya mübtəla olan insanlar əksər hallarda onu dəf etməkdə aciz qalırlar. Bu, Sibir meşələrindəki bataqlıqlara bənzəyir ki, orada yaşayan heyvanlar o bataqlığa düşür və sonra ordan çıxmaq üçün çırpınır, amma əksinə, hər hərəkətində də daha da batır. Bunlar eynilik təşkil edir. Narkotikdən istifadə insan həyatı üçün həmin o bataqlıqdan heç də az təhlükəli deyil. Asılılıq bu maddələrdən bir və ya bir neçə dəfə istifadə etməklə yaranır. Tibbi təcrübələr göstərir ki, narkomaniya ilə mübarizə aparmaq çox çətindir. Bu bəladan xilas olmaq çox az insana qismət olur. Narkotikə qurşanmış əksər insanlar isə, bu bataqlıqda məhv olub gedirlər.

Bəs narkotik nədir? Narkotik ilk növbədə narkomanın sağlamlığına ziyan vurur. Narkomaniyaya aludəçilik orqanizmin zəifləməsi, bədənin arıqlaması və fiziki gücün düşməsi ilə nəticələnir. Orqanizmin zəhərlənməsi daxili orqanların - qara ciyər və böyrəyin zədələnməsinə gətirib çıxarır. Narkomaniyanın yaratdığı ən geniş yayılan xəstəlik "Hepatit B"-dir. Ən qorxulu xəstəliklər orqanizmə qan vasitəsilə daxil olur və vena vasitəsilə qəbul olunan narkotiklərdən istifadə edən narkomanlar qan ilə tez-tez rastlaşır. Bu zaman hər bir xəstəliyə, o cümlədən də "HİV" və "QİÇS"-ə yoluxma halları çoxalır.

Bəşəriyyət üçün ən təhlükəli bəla olan narkomaniya ilə bağlı problemləri dünya ictimaiyyətinin diqqətində saxlamaq məqsədilə BMT iyun ayının 26-nı "Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü" elan edib. Məhz həmin gün narkomaniya ilə mübarizədə atılan addımların hesabatı kimi dəyərləndirilir. Görülən işlər öz müsbət nəticəsini verdikdə gələcək üçün nəzərdə tutulan düzgün perspektivlərin müəyyənləşdirilməsi üçün vəzifələr də bəlli olur, daha səylə çalışmaq üçün stimul yaranır.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi dövlət başçısının 22 iyul 2019-cu il 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nı rəhbər tutaraq illik fəaliyyət planı hazırlayıb. Azərbaycan Ordusunda bu fəaliyyət planının reallaşması məqsədilə aidiyyəti dövlət orqanları, ictimaiyyət, QHT və KİV-lə birlikdə tədbirlər həyata keçirilib.

Azərbaycan Ordusunda aparılan genişmiqyaslı islahatlar çərçivəsində ordu gəncləri arasında sağlam həyat tərzinin təbliğ olunması, narkomanlığın fəsadları haqqında onlarda düzgün təsəvvürün formalaşması, maarifləndirici tədbirlərin görülməsi əsas amillərdən biri kimi hər zaman diqqətdə saxlanılır. Orduda ictimaiyyət nümayəndələri ilə birgə "Bəşəriyyətin təhlükə mənbəyi - narkomaniya", "Narkomaniya nədir?", "Narkomanın aqibəti", "Narkomanlıqla mübarizə hər birimizin vətəndaşlıq borcudur", "Narkomaniyaya yox deyək!", "Gənclər sağlam həyat tərzi seçir", "Narkomanlığa və QİÇS-ə qarşı mübarizə mənəviyyatın xilası deməkdir" mövzularında mütəmadi olaraq təlim-metodiki məşğələlər, tərbiyəvi iş saatları, konfranslar, "dəyirmi masa"lar və seminarlar təşkil edilir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində rəşadətli ordumuzun düşmən üzərində tarixi Zəfər qazanması da məhz fiziki və mənəvi sağlam gənclərin sayəsində mümkün olmuşdur.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Tailandda hərbi gəmi batıb, 31 dənizçi itkin düşüb



Cənubi Çin dənizində patrul xidməti həyata keçirən Tailand Hərbi Dəniz Qüvvələrinə məxsus "HTMAS Sukhothai" hərbi gəmisi fırtına zamanı qəzaya uğrayıb. Yüzdən çox heyət üzvünün üçdəbiri itkin düşmüş hesab olunur.

BBC teleradio kompaniyası xəbər verir ki, hadisə dekabrın 18-i axşam saatlarında Siam körfəzində baş verib. Hakimiyyət orqanları batan "HTMAS Sukhothai" korvetindən 75 ekipaj üzvünün xilas edildiyini bildirib, itkin düşən 31 dənizçinin axtarışı isə davam edir. Tailand Hərbi Dəniz Qüvvələri insidentlə bağlı təhqiqata başlayıb.

Qeyd edək ki, dekabrın 17-də Honkonq sahillərində güclü tropik qasırğanın təsirinə məruz qalan "Fujing 001" sənaye gəmisinin də onlarla heyət üzvü itkin düşüb.

## Ağ Ev: Bayden bu həftə 850 milyard dollarlıq müdafiə büdcəsini imzalayacaq



Prezident Cozef Bayden ABŞ-ın müdafiə büdcəsini imzalayacaq və bu, təxminən 850 milyard dollar təşkil edəcək.

Bunu Ağ Evin mətbuat katibi Karin Jan-Pyer brifinqdə bildirib.

"Sənəd bu həftənin sonunda imzalanacaq", - deyə o qeyd edib.

Xatırladaq ki, ABŞ Konqresinin Senatı Pentaqonun 2023-cü il üçün hərbi büdcəsini 847,3 milyard dollar məbləğində təsdiqləyib. 100 senatordan 79-u silahlı qüvvələrə rekord məbləğin ayrılmasının lehinə səs verib. Hərbi büdcə layihəsi 2022-ci ildəki 778 milyard dollardan təqribən 850 milyard dollara yüksəlib.

## Rumıniyada NATO-nun döyüş qrupu yerləşdiriləcək



Rumıniya parlamenti ölkədə NATO müttəfiqlərindən ibarət döyüş qrupunun yaradılmasını dəstəkləyib.

Bu barədə "Agerpres" agentliyi məlumat yayıb.

Qeyd olunub ki, döyüş qrupunun Fransanın rəhbərliyi altında yaradılması planlaşdırılır.

Bundan əvvəl Rumıniya Prezidenti Klaus İohannis parlamentarilərdən bu təşəbbüsü təsdiqləməyi xahiş etmişdi. Müraciətində o, ölkədə NATO-nun döyüş qrupunun yaradılmasının Alyansın müdafiə qabiliyyətini artıracağını bildirmişdi.

## Belarus “S-400” və “İsgəndər” komplekslərini döyüş növbətçiliyinə gətirib



Belarus Prezidenti Aleksandr Lukaşenko Rusiyanın "S-400" və "İsgəndər" raket sistemlərinin artıq ölkədə döyüş növbəsinə gətirildiyini bildirib.

Bu barədə TASS agentliyi xəbər verir.

"Bu gün biz sizin Belarusa təhvil verdiyiniz "S-400" sistemlərini, ən əsası isə altı ay əvvəl bizə təhvil verdiyiniz "İsgəndər" kompleksini döyüş növbəsinə qoyuruq", - Belarus Prezidenti rusiyalı həmkarı ilə görüşdən sonra jurnalistlərə deyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhidin xatirəsinə həsr olunan anım mərasimi keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn İsmayıl Mehdiyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib.*



Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, rayon icra hakimiyyətlərinin əməkdaşları, şəhidin ailə üzvləri, yaxınları, eləcə də döyüş yoldaşlarının iştirak etdikləri tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu qələbənin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Mərasim iştirakçılarına İ.Mehdiyevin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx təqdim edilib.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimində vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.





# Şəhid kapitan Ramil Babayevin anım tədbiri keçirildi





*Kürdəmir rayonunda yerləşən 1 nömrəli orta məktəbdə şəhid Ramil Taqət oğlu Babayevin anım tədbiri keçirildi.*

Tədbirdə şəhidin ailə üzvləri, yaxınları, Kürdəmir rayon ictimaiyyət nümayəndələri, hərbi qulluqçular və Azərbaycanın digər bölgələrindən olan şəhid valideynləri iştirak etdilər.

Əvvəlcə Kürdəmir rayon Şəhidlər xiyabanında şəhidin məzarı ziyarət edildi, önünə əklil və gül dəstələri düzüldü. Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra şəhidin adını daşıyan şəhid kapitan Ramil Babayev adına 1 nömrəli orta məktəbdə anım tədbiri davam etdirildi.



Tədbirdə şəhidin valideynləri, həyat yoldaşı onunla bağlı xatirələrini bölüşdülər. Ramil Babayevin təhsil aldığı məktəbin müəllimləri, sinif yoldaşları məktəb xatirələrindən söz açdılar. Daha sonra mayor Qorxmaz Mehdiyev şəhid Ramil Babayevin hərbi təhsilindən, hərbi xidmətindən, keçdiyi döyüş yolundan danışdı. Onun Vətən müharibəsi zamanı Murovdağ istiqamətində şəhadətə ucalmasını tədbir iştirakçılarının nəzərinə çatdırdı. "Kapitan Ramil Babayevi sıralarımızda görə bilməmək bizlər üçün çətin olsa da, onun şəhid adıyla qürur duyur, fərəhlənirik. Məktəblərdə belə tədbirlərin keçirilməsi də gələcək nəsillər üçün qəhrəmanlıq və vətənpərvərlik nümunəsidir. Düşünürəm ki, şəhid anım tədbirlərinin davamlı olması zəruri hallardan biridir. Rayonumuzda döyüşçü yoldaşımızın adını daşıyan orta məktəbdə onu yad etmək bizlərə ən böyük təsəllidir", - deyə mayor Qorxmaz Mehdiyev vurğuladı.

Daha sonra tədbir iştirakçıları şəhidin boya-başa çatdığı evi ziyarət etdilər, ruhuna dualar oxudular.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Zaur Cəfərov pauerliftinq üzrə altıqat dünya çempionu olub



Moskvada pauerliftinqin AWPCWPC versiyası üzrə dünya kuboku yarışı keçirilib. Üç yüzə yaxın idmançının mübarizə apardığı yarışda Rusiya, Qazaxıstan, Tacikistan, Belarus, Hindistan, Serbiya və digər ölkələrdən atletlər birincilik uğrunda mübarizə aparıblar.

Əməkdar və beynəlxalq dərəcəli idman ustası, dəfələrlə dünya və Avropa çempionu, mütləq dünya çempionu, dünya və Avropa rekordçusu olmuş Azərbaycan Stronqmen Federasiyasının üzvü Zaur Cəfərov (110 kq) növbəti uğura imza atıb. İdmançımız AWPC versiyası üzrə "benç press" hərəkətində 262,5 kiloqram nəticə ilə 6-cı dəfə dünya çempionu adını qazanıb. Z.Cəfərov Azərbaycanın pauerliftinq tarixində ilk dəfə olaraq AWPC üzrə ən yüksək dərəcə tələbini yerinə yetirərək "elitar idmançı" tituluna yiyələnib.

Yığmanın digər üzvləri Şəmsi Bayramov (110 kq) veteranlar arasında AWPC versiyası üzrə "deadlift" hərəkətində 240 kiloqram nəticə ilə birinci olub. Aqşin İsmayılov (82,5 kq) WPC versiyası üzrə "benç press" hərəkətində 290 kiloqram nəticə göstərərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və mütləq dünya çempionu adına layiq görülüb. Azərbaycan komanda hesabında üçüncü olub.

## Qazax güləşi üzrə millimiz dünya çempionatından 4 medalla qayıdıb



Qazaxıstanın paytaxtı Astanada qazax güləşi üzrə U-17, U-20 və böyüklər arasında dünya birinciliyi və çempionatı keçirilib.

Azərbaycan təmsilçilərindən Nəsimi Unbayev (böyüklər arasında, 55 kq) gümüş, Nicat İsmayılov (U-17, 60 kq), Ataxan Babayev (U-20, 60 kq) və Nihad İskəndərov (U-20, 100 kq) isə bürünc medal qazanıblar.

## Dünya çempionatının simvolik komandası



"WhoScored" internet portalı 2022-ci ildə Qətərdə keçirilən dünya çempionatının simvolik komandasını tərtib edib.

Argentina yığmasının hücumçusu Lionel Messi və Portuqaliya yığmasının yarımmüdafiəçisi Brunu Fernandeşin 10 ballıq sistemlə ən yüksək qiyməti alıblar - 8,2 bal.

İkinci ən yüksək qiymət (8,0) fransalı Kilian Mbappeyə məxsusdur.

"DÇ-2022"nin simvolik komandasının tam heyəti belədir:

Qapıçı: Voyçex Şensnı (Polşa, 7,9 xal)

Müdafiəçilər: Teo Hernandes (Fransa, 7,2), Rodri (İspaniya, 7,4), Harri Maquayr (İngiltərə, 7,4), Aşraf Hakimi (Mərakeş, 7,0)

Yarımmüdafiəçilər: Kazemiro (Braziliya, 7,5), Brunu Fernandeş (Portuqaliya, 8,2), Jud Bellinqem (İngiltərə, 7,6)

Hücumçular: Antuan Qrizmann (Fransa, 7,5), Lionel Messi (Argentina, 8,2), Kilian Mbappe (Fransa, 8,0).

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Avazov Nəsrəddin Fəxri oğluna məxsus MN № 0064353 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Hüsniyyə İDRİSOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1262
Nüsxə 4740